Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Sazla, sözlə çağlayan, daşan şair

**Zəlimxan Yaqubun 70 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Sazla, sözlə çağlayan, daşan şair:** Zəlimxan Yaqubun 70 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 44 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

***Ömrüm boyu pərəstiş etdiyim şəxslər müəllimlər, bir də kitabxanaçılar olub.***

Xalq şairi Zəlimxan Yaqub

Xalq ruhuna, poetik fikrimizin gözəl ənənələrinə səmimi hörmət bəsləyən şairlər həmişə xalqın istəklisi olurlar. Zəlimxan Yaqub məhz belə şairlərdən olub, vətənpərvər şair kimi qanı canına hopdurulmuş ana torpağın yetişdirdiyi vətənə layiq oğullarımızdandır. Müasir Azərbaycan ədəbiyyatının yeni mərhələsində Zəlimxan Yaqubun çoxcəhətli yaradıcılığı ədəbi hadisədir. XX yüzilliyin 70-80-ci illərində xalqın milli-mənəvi dünyasında azadlıq və istiqlaliyyət meyilləri gücləndiyi şəraitdə Zəlimxan Yaqubun böyük potensiala malik ədəbi imkanları bütün qüdrətilə üzə çıxdı. Akademik Nizami Cəfərovun obrazlı şəkildə dediyi kimi, "Azərbaycan poeziyasının geniş səmasında bir ildırım çaxdı, bir Günəş parladı... Gur səsi, ətrafı bir anda nura qərq edən poetik enerjisi ilə şeiri geniş meydanlara, böyük auditoriyalara çıxardı..."

Azərbaycan şeirinin orta nəslinə mənsub olan Zəlimxan Yaqubun çağlayan lirikası ana Vətənin, müstəqil Azərbaycanın yeni dövrünün mənalı və düşünülmüş poetik tərcümeyi-halından ibarətdir. Qanlı-qadalı günlərin əks-sədası "Sizi qınamıram", "Şəhidin səsi", "Şair harayı", "Bu gecə yuxuma girmişdi Şuşa", "Qalmaz", "Qara bayraq", "Xocalıya ağı", "Ey vətən oğulları!", "Dur ayağa məmləkətim", "Rəsul Həmzətova məktub", "Qoruya bilmədik məzarınızı", "Əsgər qardaşıma məktub", "Ordum varsa, yurdum var", "Çıxış edir Xəlil Rza", "Gecikmiş etiraf", "Səslərin görüşü", "Vətən yaraları" şeir və poemaları Zəlimxan Yaqubun yaradıcılığına həsrət, qəm-kədər, mübarizlik, intiqam, çağırış, döyüşkənlik ruhu daxil etmişdir. Qarabağ dərdi, Şuşa və Laçın ağrısı, Xocalı göynərtisi Zəlimxan Yaqubun yaradıcılığında yeni bir mərhələ yaradır. O, vətəndaş şair kimi vətənin ağır günündə xalqı intiqam almağa,

mübarizəyə səsləyir, əsgərləri milli istiqlaliyyəti göz bəbəyi kimi qorumaq, ölkəmizin bütövlüyünü bərpa etmək naminə silaha sarılmağa, döyüş meydanına çağırır.

Çatıb həqiqətinə
          haqqını almaq üçün.
Düşmən bayrağını
          ayağa salmaq üçün.
Qalibiyyət hayqırıb,
          qələbə çalmaq üçün
Millətin xilas yolu
          bu gün savaşdan keçir.

Azərbaycan xalqının zəngin şifahi və yazılı poetik irsinin həqiqi varisi olan Zəlimxan Yaqub bu tükənməz mənəvi xəzinədən bəhrələnməklə milli ədəbi aləmdə özünəməxsus cığır açdı. Zəlimxan Yaqub müasir Azərbaycan şeirinin korifeyi missiyasını şərəflə yerinə yetirmişdir. Onun şeirləri dünya ölkələrində milyon-milyon insanların qəlbinə bəşəri hisslər–sülh, əmin-amanlıq, dostluq duyğuları, həyat eşqi aşılayır. Zəlimxan Yaqubun yaradıcılığı sanki, şeirlə yazılmış milli poeziya tarixidir. Onun şeir dili çox aydın, çox sadə və bədii təsvir vasitələrilə zəngin, xalq deyimləri və atalar sözlərilə doludur. Həssas oxucu ilk baxışdan müəllifin mövzu dairəsinin genişliyini, rəngarəngliyini duyur, başa düşür. Şairin özünəməxsusluğu, onun şeirlərinin, adının oxucular arasında hörmət qazanması ona ictimai mükafatdır. Onun poeziyası milli oyanışa, milli ruhun təbliğinə, milli özünüdərkə xidmət edir. Poeziyamızı Zəlimxan Yaqub qədər təbliğ edən ikinci bir şair tapmaq çətindir. Bu, bir yandan onun qeyri-adi hafizəsi, digər tərəfdən, ürəkgenişliyi və poeziyamıza vurğunluğu ilə bağlıdır. Zəlimxan Yaqub fenomenal yaddaşı, öz sanballı şeirləri ilə poeziya duyumlu qəlbləri sözün tam tutumunda əfsunlamışdır.

## Sazın və sözün vəhdətini yaradan şair

Yaqubov Zəlimxan Yusif oğlu, 1950-ci il yanvarın 21-də Gürcüstanın Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Orta məktəbi həmin kənddə bitirdikdən sonra ADU-nun kitabxanaçılıq fakültəsində təhsil almışdır. Ədəbi fəaliyyətinə 1966-cı ildə "Qələbə bayrağı" rayon qəzetində Şota Rustavili" adlı ilk şeiri ilə başlamışdır. Elə o vaxtdan fəal yaradıcılıqla məşğul olmuşdur. Ə. Haqverdiyev adına Ağdam Dram Teatrında "Aşıq Ələsgər" adlı mənzum pyesi tamaşaya qoyulmuşdur. Z.Yaqub 1983-cü ildən Yazıçılar İttifaqının üzvüdür. Yazıçı 1995-ci ildə Məmməd Araz ədəbi mükafatı, "Şair harayı", "Vətən yaraları", "Sizi qınamıram", "Ziyarətin qəbul olsun" kitablarına görə isə H.Z. Tağıyev adına mükafata layiq görülmüş, "Şöhrət" ordeni və Gürcüstan Respublikasının "Şərəf" Ordeni ilə təltif edilmiş, 2005-ci ildə Xalq şairi fəxri adına layiq görülmüşdür. Z.Yaqub 2008-ci il avqust ayının 29-da Azərbaycan aşıqlarının V-ci qurultayında Azərbaycan aşıqlar birliyinin sədri seçilib. Rəsmi nümayəndə heyətinin tərkibində 1995-2000-ci illər Çində, Səudiyyə Ərəbistanında, Almaniyada, Amerikada, İsveçdə, İsveçrədə, Qırğızıstanda, Türkiyədə, Fransada və İranda səfərdə olub. Yaradıcılığı bütöv Azərbaycan, bütöv Türk dünyası tərəfindən sevilən, ümumxalq məhəbbəti qazanan Xalq şairi Z.Yaqubun Azərbaycan poeziyasının əsrlərin yaddaşlarından süzülüb gələn ahəngini modern şeirdə öz əksini tapmasında da rolu çox böyük və hətta əvəzolunmazdır.

Xalq şairi Z.Yaqub 2009-cu il iyunun 6-da Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının "Türk dünyasına xidmət" mükafatına layiq görülərək həmin akademiyanın fəxri doktoru seçilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 21 yanvar 2010-cu il tarixdə Xalq şairi Zəlimxan Yaqubun anadan olmasının 60 illiyi münasibətilə "Şərəf"

ordeninə layiq görülüb. Şair Məhəmməd Əmin Rəsulzadəyə, Səməd Vurğuna, Mikayıl Müşfiqə, İlyas Əfəndiyevə, İsa Muğannaya, Hüseyn Arifə, Məmməd Araza, Tofiq Bayrama, Musa Yaquba, Cavad Heyətə, Mikayıl Mirzəyə və bir çox başqalarına şeirlər həsr edib. İsa Muğannaya "Ün", Turan Cavidə "Cavidin qız balası", Xudu Məmmədova "İnsan" poemalarını ithaf edib. Bir çox yazıçı və şairlərimiz, ictimai xadimlər haqqında xatirə məqalələri yazıb. Zəlimxan Yaqubun Heydər Əliyevə həsr etdiyi "Əbədiyyət dastanı" ali kədər və ali sevgidən yaranıb. Sinəsində alov-alov duyğular parlayan, xalqını, millətini sevən insan Zəlimxan Yaqub öz irqinin köklü mədəniyyətə sahib olduğuna inanmış, könlünü buna vermişdir. Azərbaycan ədəbiyyatında folklorla yazılı ədəbiyyatın sıx əlaqəsini bariz şəkildə əks etdirən Z.Yaqubun yaradıcılığı ədəbiyyatın şifahi və yazılı qollarının sıx vəhdətindən ibarətdir. Onun şeirlərinin ümumxalq məhəbbəti qazanmasının başlıca sirri şairin toxunduğu, qələmə aldığı mövzuların aktuallığında, müasirliyində, xalqın mənəvi dünyasını düzgün işıqlandırılmasındadır. Bəli, Zəlimxan Yaqub peşəkar söz sənətçisidir. Şair sazın qoruduğu dilin filosofudur. Z.Yaqub həyatdakı mövqeyini qələmlə, əqidəylə, etiqadla, saçından dırnağına qədər öz sənətinə, sazına-sözünə vurğun olmağı ilə qazanıb.

## Yubiley tədbirlərinin keçirilməsi

Çağdaş Azərbaycan poeziyasında özünəməxsus yeri, poetik nəfəsi olan Zəlimxan Yaqubun əsərləri xalqımıza məxsus mütləq dəyərlərin, folklor yaradıcılığı qaynaqlarından süzülüb gələn ənənələrin diriliyi ilə səciyyələnir, ədəbiyyatımızda irsilik ideyasını tərənnüm edir. Aşıq sənətinə, saz şairlərinin poetik texnologiyasına bələd olan şairin qələmə aldığı şeirlər öz bədii-estetik enerjisi ilə oxucu qəlbinə yol tapır, onun ovqatının ifadəçisinə çevrilir. Z.Yaqubun şeir dilinin başlıca xüsusiyyəti onun canlı xalq dili elementləri ilə zənginliyindədir. Bu dil

özündə Yunus İmrədən tutmuş Aşıq Ələsgərə, Vaqifdən tutmuş Səməd Vurğuna və nəhayət Səməd Vurğundan Zəlimxan Yaquba qədər şeirimizin keçdiyi yolda əldə etdiyi nailiyyətləri özündə əks etdirir. Bu il sevilən şairimiz Zəlimxan Yaqubun 70 yaşı tamam olur. Xalq şairinin yubileyi ilə bağlı bütün mədəni-maarif müəssisələrində, o cümlədən kitabxanalarda müxtəlif səpkidə tədbirlər keçirilməkdədir. Bu tədbirlərə oxucu konfransı, kitab təqdimatı, sual-cavab gecəsi, dəyirmi masa, şeir gecəsi, ədəbi-bədii gecəni misal gətirmək olar. Kitabxanada tərtib olunmuş sərgiləri kitabxananın güzgüsü hesab etmək olar. Hər kitabxanada şairin həyat və yaradıcılığından bəhs edən zəngin sərgilər tərtib etmək olar. Sərgidə şairin seçilmiş əsərləri, ayrı-ayrı əsərləri, onun haqqında yazılmış kitablar, dövri mətbuatda dərc olunmuş qazet-jurnal məqalələrindən istifadə etmək olar. Sərgiyə belə başlıqlar vermək olar: “Azərbaycanın nəğməkar ürəyi”, “Zəlimxan Yaqub – 70”, “Sazla, sözlə çağlayan, daşan şair”, “Sazın, sözün vəhdətini yaradan şair”, “Zəlimxan Yaqub ədəbi düşüncədə”, “Xalqın sevimli şairi”, “Allahın istedadla təltif etdiyi şair”, “Z. Yaqubun poeziya çələngi”, “Parlaq istedad sahibi”, “Poeziya gülşənində sazla, sözlə gəzən şair”, “Saz həvəsli, yaz nəfəsli sənətkar” və s.

## Kitab sərgisi




































## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Zəlimxan Yaqub haqqında

Zəlimxan Yaqubun mövzuca rəngarəng və məzmunca dolğun olan şeirləri poeziyamızda həmişə yeni səs, yeni söz kimi qəbul edilmişdir. Onun ulu əcdadlarımızın qədim sənəti olan aşıq yaradıcılığının incəliklərini dərindən bilməsi şeirlərinin bədii siqlətini daha da artırır. Şair Azərbaycan poeziyasının inciləri səviyyəsinə qalxa bilən nəzm əsərləri yaratmışdır.

**Heydər Əliyev,**
*Ulu Öndər*

Zəlimxan Yaqub Azərbaycanın, ümumən Türk dünyasının dünyaya bəxş etdiyi böyük şairlərdəndir ki, onun yaradıcılığının cövhərində, mayasında ilahi istedadın energisi, Tanrıdan gələn güc, qüdrət var, əgər belə olmasaydı, o, Zəlimxan Yaqub olmazdı.

**Nizami Cəfərov,**
*akademik*

Xalqına gözəgörünməz tellərlə bağlı olan, xalq ruhu ilə qaynaqlanan, bu ruhla pərvəriş tapan qələm sahibi özü hiss etmədən xalqın ruhuna köklənir və yazıları da bu ahəngin süzüntüsünə çevrilir. Zəlimxanın qələmindən çıxan irili-xırdalı bütün şeirləri bu ahəngdən doğur.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Zəlimxanın şeirləri, əsasən, xalqımızın həyat, məişət ənənələrindən, onun yaradıcılığından, şeir dilindən qidalanır.

Müəllifin xalq yaradıcılığına böyük məhəbbəti, dil, ifadə, ruh yaxınlığı, forma yaxınlığı folklorun, aşıq şeirinin əsla kor –koranə təqlid və təkrarı deyildir.

**Osman Sarıvəlli,**
*Xalq şairi*

Şairin özünə, sənətinə tələbkarlığı, bu sənətin böyüklüyünü, çətinliyini başa düşməsi onu həmişə yeni uğurlara aparır.

**Mirvari Dilbazi,**
*Xalq şairi*

“Gözünəmin uvası”, “könlüqəmin yuvası” xalqın sənin göz yaşlarından uca vəcd duyub vəcdə gəlir, sənin qəmində ülvi şadlıq duyub şad olur, “haray sazı, Ün sazı” “ömür sazı, gün sazı” Zəlimxanımız! “Zərif sözü, incə sözü” siqlətli külüng Zəlimxanımız!

**İsa Hüseynov (Muğanna),**
*Xalq yazıçısı*

Zəlimxan Yaqub folklorla nəfəs alır. Bu qabiliyyət xalqın güzəranına, məişətinə, etnoqrafiyasına dərindən bələd olmaq və bunları öz içində yaşatmaq, həmin xalqın dilini, psixologiyasını ən incə məqamlarına, ən zərif çalarlarınacan mənimsəmək, hiss etmək deməkdir.

**Elçin,**
*Xalq yazçısı*

Zəlimxanın yardıcılığı mənim türkcəmin çox doğma sözlərindən, duyğularından hörülüb ki, bu duyğuların, sözlərin minlərlə yaşı var…

**Mövlud Süleymanlı,**
*Xalq yazıçısı*

Zəlimxanın mayası sazla yoğrulub. Sazın bağrından qopan odu-alovu, simlərdən süzülən zümzüməni onun şeirlərində eşitmək olar. Sazla Zəlimxan baş-başa verib pıçıldaşanda, mənə elə gəlib ki, şeir- sənət vurğunu bir-biri ilə dərdləşir, bir-birinin hoyuna çatır, dadına yetir.

**Hüseyn Arif,**
*şair*

Zəlimxan Yaqubun şeirlərində axıcılıqla bərabər dərin səmimiyyət də var. Bu ondan irəli gəlir ki, hər hansı predmet və əşya barədə ilham və məhəbbətlə danışmağı sevir.

**Qulu Xəlilov,**
*professor*

Zəlimxan Yaqub yaradıcılığı şeirlə yazılmış poeziya tarixidir.

**Səlahəddin Xəlilov,**
*filosof*

Zəlimxan Yaqubun poeziyasında həyat həqiqətdə olduğundan daha həyatidir. Ən önəmlisi isə odur ki, onun poeziyası milli oyanışa, milli ruhun təbliğinə, milli özünüdərkə xidmət edir.

**Qəzənfər Paşayev,**
*Professor*

Zəlimxan Yaqubun əli qələm, dili söz tutan vaxtdan ötən yarım əsr ərzində zəngin yaradıcılığı və qaynar ictimai fəaliyyəti müasir milli mədəniyyət xəzinəmizi zənginləşdirmişdir.

**Teymur Əhmədov,**
*professor*

Mən Zəlimxanı şeirimizin, poeziyamızın, Azərbaycan xalqının başucalığı hesab edirəm.

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

Zəlimxan Yaqubun yaradıcılığında Vətən mövzusu mütləq ölçülərlə təsvir olunmur, ölçüsüzlüyə çevrilir.

**Xudu Məmmədov,**
*akademik*

Zəlimxan Yaqubun göz yaşları ilə yazdığı möhtəşəm "Əbədiyyət dastanı" Azərbaycan tarixində bir epoxa olan, misilsiz xidmətlərinə görə xalqın xatirəsində əbədilik qazanan, onun qürur və güvənc yerinə çevrilən dahi şəxsiyyət Heydər Əliyevə kədər dağının zirvəsindən oxunan elegiyadır.

**Azər Turan,**
*ədəbiyyatşünas, alim*

Zəlimxanın hər şeirindən Vətən ətri gəlir, el-obanın, yurd-yuvanın istisi, sazımızın nəfəsi, dilimizin şirinliyi duyulur.

**Musa Nəbioğlu,**
*"Ozan dünyası" jurnalının baş redaktoru*

Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığını oxucular arasında təbliğ etmək məqsədilə kitabxanalarda məktəblilərin iştirakı ilə **"Zəlimxan Yaqub yaradıcılığında saz"** adlı oxucu konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən edilməlidir. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Zəlimxan Yaqubun yaradıcılığına yaxından bələd olan ədəbiyyatşünasların, yazıçı və şairlərin çıxışları dinlənilir.
Oxucu konfransının planını sizə təqdim edirik:
1. Giriş hissə (Zəlimxan Yaqubun yaradıcılığında saz);
2. Zəlimxan Yaqubun həyat və yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, ədəbiyyatşünasların, jurnalist, yazıçı və şairlərin çıxışları;
3. Məktəblilərin Zəlimxan Yaqubun şeirləri əsasında hazırladıqları kompozisiya;
4. Konfransın yekunu: "**Sözün Zəlimxan zirvəsi**"

*Konfransı açan metodist Zəlimxan Yaqubun həyat və yaradıcılığı haqqında konfrans iştirakçılarına ətraflı məlumat verir. Sonra isə konfrans iştirakçılarına söz verilir.*

**Metodist:** Tanrı insanı yaradarkən ona bir çox qabiliyyətlər verib. Onların sırasında ən nəcibi və ən dərini söz deməkdir. Söz düzümünün zirvəsi isə şeirdir. Söz düzümünün zirvəsinə çatmaq istedadını isə tanrı öz seçmə övladlarına verir. Hər kimsəyə bu qismət olmur. Hər şairin öz vurğunluq meyarı, sinədostu, qida verən həmsöhbəti var. Dədə Qorqudda qopuz, Koroğluda misri qılınc, Camidə duyğu, Nəsimidə İnsan, Füzulidə Məcnun, Nigar xanımda qərənfil,  Hafızda bülbül, Sabirdə millət Müşviqdə tar, Bəxtiyarda ana dili üstündə oxunan muğam, Zəlimxan Yaqubda isə sinədostu Sazdır. Saz Azərbaycan və türk poeziyasında bir çoxunu köklәmişdi: Yunus İmrəni, Xətaini, Qurbanini, Ələsgəri, Alını, Vurğunu... və bu sıranı davam etdirməyə, yeni söz deməyə, yeni çalar tapmağa böyük istedad tələb olunur ki, bu istedadı Yaradan Zəlimxan Yaquba verib. Məhz Z. Yaqub sazla – sözü elə vəhdətləşdirdi ki, onun şeirində saz deyərkən söz, söz deyərkən saz sazlanır insanın düşüncəsində. Onun saza fəlsəfi baxışı ondan ibarətdir ki, o, saz üstə deyilən sözün xeyirin və şərin, qələbənin və məğlubiyyətin, sevginin və nifrətin, sülhün və qiyamın carçısı kimi hiss etdirməyə nail olub. Zəlimxan Yaqubun sazı, sadəcə musiqi aləti deyil, düşüncə sahibidir, şair ona müraciətlə "danış telli sazım" deyir. Z.Yaqub qədim kök üstündə bitən ağac kimi saza münasibətini qeyd edərkən Dədə Qorquda, onun qopuzuna müraciət edir. Şair üçün qopuz "qəlbin susmaz simi", keçmişimizin özül daşı, bünövrəsi, himi"dir, Qorqud isə tariximizi naxışlara yazan, hətta adındakı "qor" kökü belə ona arxa duran bir amildir.

**Ədəbiyyatşünas:** Z.Yaqub Qorquddan, şairlər diləyində az-az rast gələn bir keyfiyyət "inad" diləyir. Dədə Qorqudla söhbətini Dədə Qorqud dastanı dilində elə qoşur ki, heç bir sərraf onu təqliddə təqsirləndirə bilmir. "Saz" poeması Dədə Qorqud şeir üslubu irsinə sadiq qalmaqla onu yeniləşdirmək cəhdinin gözəl

nümunəsidir. Şair saz havasının insan düşüncəsinə və əhval-ruhiyyəsinə təsirini açaraq yazır: "Divani" aşığın ilk sözü, ilk söhbətidir, "Müxəmməs" bağladığı qapıların açarıdır, "Təcnis" dilimizin şirəsi, ağzımızın dadıdır, "Qaraçı" "fikir dəryasına cuman dağları" səsi ilə silkələyib yerindən qaldırandı: "Sarıtel" bir ürəkdə yanan ocağın odunu daşıyandır, "Mansırı" dünyadan ayrılıb gedən canların, dünyaya sığmayan fərağıdır, "Ruhani" zirvələrdə tufan eyləyən yel, dərələrdə tüğyan eyləyən sel, dünyanı silkələyən bir qüvvədir; "Yanıq Kərəmi" "ruhda üsyan, könüldə qəm" gəzdirən, "Dilqəmi" nakam eşqin aləmidir. "Misri" isə ocaqdan, alovdan, qığılcımdan yaranan, ildırımdan od alandır. Zəlimxan Yaqub Misrinin milli düşüncəmizə təsirini xüsusi qeyd edir. "Misri çalınmasaydı beşiyimin yanında, tamam itib batardım Çaldıran savaşında". Şair sual verir: Misri mənim nəyimdir? Və belə cavablayır: Kamalda bitkinliyim, sınaqlarda dözümüm, döyüşdə yetkinliyim, mən onu çala-çala qeyrətimi qorudum, mərdliyimi yaşatdım, inadımı qorudum, sərtliyimi yaşatdım!

Zəlimxan Yaqubun daxilindən şeir gələrkən həmişə sanki bir aşıq havası çalınır. Onun yaradıcılığında fərqləndirici amillər onun xalq dilindən və xalq ruhundan geniş istifadə etməsidir.

Zəlimxanın yaradıcılığı zəngin ənənə üstündə qurulubsa da, o, saz üstündə deyilən şeir ənənəmizə yenilik gətirdi. Onun yaradıcılığında şeir dili ilə xalqın dili elə vəhdətləşib. Z. Yaqubun danışıq tərzi elə cazibədar idiki, onun hərarəti sanki dinləyicini Azərbaycan təbiətinin bir iqlimindən o biri iqliminə aparır. Onun danışığı o qədər canlı idi ki, onu dinləyərkən sanki həyatın keçmişini də sabahını da elə indi yaşayırsan. Şair ədəbiyyat tariximizin yolları ilə Dədə Şəmşirdən Dədə Qorquda doğru gedir. Gedir və geri qayıdanda artıq öz saldığı yolla tarixlə müasirliyin vəhdəti ilə işıqlanan yeni bir yolla qayıdır. Poeziya tarixinin dərinliyinə baş vurub yenidən bu günün gerçəkliyinə dönür. Dərinliyin hər qatında özü ilə bir mirvari, bir inci gətirir şeir – sənət incisi. Bu səyahətdə o, Müşfiq ilhamından maya alır,

Yunis İmrə bulağında saflaşır, Nizamidən hikmət, Füzulidən heyrət, Sabirdən qeyrət götürür. Bəli, Z.Yaqub bu səyahətdə ulularin qəlbi ilə duymağı, təbiətin musiqisini dinləməyi öyrənir.

Zəlimxan Yaqub Saz üstə yazılan sözün, sözü ucaldan sazın Ustadıdır. Onun saza-sözə, aşıq sənətinə münasibətini bu kəlamlar: "Saz mənim üçün Türk ruhunun şəksiz və şəriksiz, tək və müqəddəs alətidir. Saz mənim üçün ana laylası, beşikdən məzara qədər ömür yolunda yol yoldaşım, könül sirdaşım, həyatım, varlığımdır". Şair öz məramını poeziya dili ilə belə çatdırır:

Sən varsan, həyatda mən varam demək,
Səsimi hər yana yetir, ay sazım.

Və ya:

Qalxıb şəhər könlüm, meyli kəndədi,
Xəyalım yaylaqda, göy çəməndədi.
Özüm Göyçədə yox, Göyçə məndədi,
Hər yeri gəzməyə ömür də çatmaz,
Yaxşı ki, sən varsan, ay sədəfli saz.

**I İştirakçı:** Ədəbiyyatşünas alim Azər Turan şairin poemalarından danışarkən həqiqətdən söz açan fikir söyləyir: "Etiraf etməliyik ki, Azərbaycanda muğamın dərki müstəvisində Bəxtiyar Vahabzadənin "Muğam" poeması hansı işi görübsə, Zəlimxan Yaqubun "Saz" poeması da saz havalarının dərki müstəvisində eyni işi görüb".

**II İştirakçı:** Akademik K.Talıbzadə deyirdi: "Zəlimxan sazla şeirin ruhunu, mayasını birləşdirən şairdir". Xalq şairləri Osman Sarıvəlli də, Hüseyn Arif də, AMEA-nın müxbir üzvü S.Xəlilov da bu fikirdədir.

**III İştirakçı:** Dahi Ü.Hacıbəyli yazırdı ki, aşıq sənəti elə bir aləmdir ki, burada bəstəkarın da, şairin də, xanəndənin də, rəqqasın da istənilən qədər götürə biləcəyi pay vardır. Mənə belə gəlir ki, şairlərimiz arasında aşıq sənətindən, aşıq yaradıcılığından Xalq şairi Zəlimxan Yaqub qədər pay götürən, bu sənət aləmi ilə üzvi surətdə bağlı olan ikinci bir adlı-sanlı şairimiz yoxdur. Burada bir məsələdən də söz açmaq yerinə düşərdi. Akademik Mirzə İbrahimov yazır: "Aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir keçiddir, möhkəm bir körpüdür. O, bir tərəfdən xalq yaradıcılığına bağlıdır, o biri tərəfdən yazılı ədəbiyyata. Həm bununla, həm də onunla qarşılıqlı əlaqə və təsirdə inkişaf etmişdir. Onun kökləri, rişələri folklordan su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir və ondan qüvvət alır".
**IV İştirakçı:** Tam əminliklə deyə bilərik ki, aşıq poeziyasına məxsus keçidin daimi olmasında, xalq yazıçısının söhbət açdığı körpünün daha möhtəşəm olmasında, ədəbiyyata qovuşmasında Zəlimxan Yaqub qədər xidmətləri olan başqa bir çağdaş şairimiz də yoxdur. Məhz buna görə də şairin çağdaş ədəbiyyatımızın, aşıq yaradıcılığının və folklorun qovşağında bərqərar olması təəccüb doğurmur.

Onu da demək vacibdir ki, Zəlimxan Yaqub görkəmli aşıq Hüseyn Saraçlının itkisindən təsirlənərək "Aşıq Hüseyn Saraçlı" dastanını yazmış və Xalq yazıçısı Elçinin doğru olaraq qeyd etdiyi kimi, yazılı ədəbiyyatımıza dastan janrını gətirmişdir.

Kitabxanada Zəlimxan Yaqubun yaradıcılığını oxucular arasında daha yaxından tanıtmaq məqsədilə **biblioqrafiq icmal**ların təşkili məqsədəuyğundur. **“Zəlimxan Yaqub yaradıcılığında təbiət, vətən sevgisi və sevgi ”** başlıqlı icmalın ssenarisini sizə təqdim edirik.

### "Təbiət Allahın şah əsəridir"

**Metodist:** Bu gün biz Zəlimxan Yaqubu təbiətlə təmasda, təbiətlə vəhdətdə araşdırmaq istəyirik. Hüseyn Arifdən sonra

təbiət vurğunu olan, təbiətin qoynunda dinclik tapan şairimiz Zəlimxandır. Təbiətdən böyük ziyarət olmaz - deyən şair təbiəti ilham mənbəyi, şeir qaynağı, poeziya bulağı, müqəddəslik beşiyi adlandırır.

Zəlimxan Yaqubun təbiəti dərindən duyduğunu bu misralar sübut edir.

Ən böyük hikməti təbiətdə gəz,
Olsa da yolları dolaşıq, çətin.
Yüz il yaşasan da, sirrini verməz,
Dilini bilməsən sən təbiətin!

Təbiətin dilini bilmək üçün gərək Zəlimxan Yaqub kimi onun vurğunu olasan, təbiəti bütün vücudunla sevəsən, onun qoynunda boy atasan. Şair 13 cildlik külliyyatının birinci cildinə yazdığı ön sözdə təbiətlə bağlı göstərir ki, gözündən su içdiyi bulaqlar ona aşıqlıq, şairlik bəxş edib. Həmin bulaqlar onu hallı-havalı çaylara, çaylar da sahilsiz ümmana - söz, ruh, təfəkkür ümmanına qovuşdurub:

Qəlbimi riqqətə gətirməsəydi,
Ana təbiətin yaratdıqları,
Mən hardan bilərdim şairlik nədir

## Vətən sevgisi

**Metodist:** Zəlimxan Yaqub deyir: "Sənin eşqin, sənin odun olmasa, şair qəlbi alovlanmaz, ey Vətən". Şair ölkəmizin cənnət guşələrinin əsrarəngiz gözəlliyini tərənnüm etməkdən doymur:

Nə həddi var əfsanəvi cənnətin,
Azərbaycan torpağına bənzəyə.

Şair bildirir ki, bütün sevgilərdən baş olan Vətən sevgisi, torpaq sevgisi, tarix və yaddaş sevgisidir. Bəli, Zəlimxan Yaqubun yaradıcılığı zəngin və rəngarəngdir. Onun yaradıcılığının ana xəttini Vətən, vətənpərvərlik mövzusu, yurdun hər daşının, qayasının, çölünün – çəməninin tərənnümü

və təbliği təşkil edir. “Öləndə də qəbrim qədər Azərbaycan torpağıyam” deyən şair təkcə şeirləri ilə yox, hər çıxışı, hətta adi danışığı ilə də Vətənin yorulmaz təbliğatçısı idi, insanlarda vətənə məhəbbət hissini artırır, yurd sevgisini daha da alovlandırır.

## Şairin yaradıcılığında sevgi

**Metodist:** Sevgiyə nökərəm, sevgidi şahım - deyən Zəlimxan Yaqub bütün yaradıcılığı boyu bir gün də sevgisiz yaşamayıb. Şairin şeirini oxuyan oxucu altında imzası olmasa belə şeirin kimə məxsus olduğunu müəyyənləşdirə bilər. Şairin şeirlərində diqqəti çəkən mühüm cəhət vardır. O, sevənləri ismətli olmağa, sevgiyə müqəddəs, ülvi məhəbbət kimi baxmağa çağırır. Şair üçün sevgi inamdı, ümiddi, həyatdı, dindi, imandı. Sevən ürək saf, təmiz, pak, kindən-küdurətdən uzaq olar. Sevənlərin mərd olduğu qənaətinə gəlir. Sevən adamın gözündə cəhənnəmə bənzər bir yer də dönüb laləzar olur. Şair etiraf edir: "Mənim bircə dinim var, dinimin adı sevgi". Şair gözəllik qarşısında heyrətdən lal olur. Musa Nəbioğlunun qənaəti də maraqlıdır. "Zəlimxan Yaqub üçün gözəllik başdan-başa ilhamdı, düşüncədi". Şairin sevgiyə həsr etdiyi şeirlərin sayı-hesabı yoxdur. Onları əzbər bilən insanların, xüsusən də gənclərin də sayı hesaba gəlməz. Necə ki, sevənlər var, sevilənlər var, şairin şeirləri unudulmayacaq, nəsildən nəslə keçəcək, könüllərdə yaşayacaq!

Kitabxanalarda keçirilən maraqlı tədbirlərdən biri də **icmal**dır. Şairin maraqlı əsərlərindən birini seçib onun haqqında ətraflı məlumat verilir. Sonra həmin əsər üzrə müzakirə keçirilir. İcmalın məqsədi həmin əsərə, bütövlükdə şairin yaradıcılığına qarşı marağı artırmaqdır. **“Od aldığım ocaqlar”** əsərinin qısa icmalını veririk:

Bu əsər oxucunun xəyalını Qarabağın yaşıl düzlərinə, Şahdağının qızıl darağlı, əbədi qarlı zirvəsinə çəkib aparır. Bu vətən məhəbbəti bizi kövrək bənövşələr, təzə yarpaqlanmış

söyüd ağacları, moruq kolları ilə bəzənmiş ucsuz-bucaqsız yollara aparır, doğmalarımızın izlərində dolaşırıq, illərin arxasından əks-sədasını eşidirik. Həm də Azərbaycan torpağından bir ovuc aparıb, göz yaşları ilə isladıb, qürbət eldə qəbir torpağına qatdığımız itkinləri, müharibənin qurbanı olmuş igidlərimizi, ana-bacılarımızı düşünürük.

Gülə bilməz nəsillərin üzünə,
Quru yerin astarı nə, üzü nə,
Düz istərəm Qarabağın düzünə,
Dağ istərəm Şah dağına bənzəyə.

*Əziz oxucular bu əsəri oxumağı sizə tövsiyə edirik.*

Kitabxanalarda Zəlimxan Yaqubun seçilmiş əsərlərindən "Gözəl dünya, gözəllərin var olsun" adlı **poeziya gecəsi** keçirmək olar. Poeziya gecəsində şairin sözlərinə yazılmış mahnılar səsləndirilməlidir. Şair haqqında yazıçılar, ədəbiyyatşünaslar, şairlər öz ürək sözlərini söyləyə bilər. Eyni zamanda yuxarı sinif şagirdləri, kitabxananın fəal oxucuları şairin şeirlərindən əzbər söyləyə bilərlər.

**"Əbədiyyət dastanı"**
**Əsrin Heydər tarixi**

Dərdi varsa, dərmanı da
var bu millətin,
Dərd düşməndən, dərman dostdan,
güc Haqdan gəlir.
Onu torpaq yaddaşından
ayırmaq çətin,
Güvəndiyi hər na varsa
torpaqdan gəlir.

El arxası, yer ürəyi,
yurd dayağıydı,

Yaddaş adlı bir torpaqdan
dikəldi Heydər.
Ona görə arxamızda
Qafqaz dağıydı,
Ona görə qəlbimizdə
heykəldi Heydər.

Haqdan gələn bir işarə
onun bəsiydi,
Dövlət qurdu, millət sevdi,
torpaq saxladı
O, Tanrının bu millətə
hədiyyəsiydi,
Bir kök üstə gör neçə min
budaq saxladı.

Sinə gərdi yad əllərdən
atılan daşa ,
"Yaşa" dedi, "yurdum yaşa,
torpağım yaşa".
Ürəyində fırtınalar
verdi baş-başa,
sinəsində odu sönməz
ocaq saxladı.

Hünərini, təpərini,
hirsini verdi,
Haqqımızı dananların
dərsini verdi.
Dünya ona ən möhtəşəm
kürsünü verdi,
qoca tarix qarşısında
oyaq saxladı.
Bu, tarixdi, hər adamı

almır eyninə,
Hər adamı yada salmır,
yadda saxlamır.
Dadı alır, dadı verir,
dəyişir həyat,
Qoca dünya hər tikəni
dadda saxlamır.

Bu, tarixdi, birdən-birə
oxumaq olmur,
onu gün-gün, saat-saat
dərd edəcəksən.
Böyük olan həqiqətə
açıb qəlbini
Xırda, cılız fikirləri
tərk edəcəksən.

Bu, tarixdi, kim yaratdı,
kim yaşatdısa,
Yaddaş onun, kitab onun,
əsər onundur.
Gələcəyi qucaqlayan
məhəbbət onun,
Qılınclardan kəskin olan
kəsər onundur.

Öz tarixim küncdə qaldı,
bucaqda qaldı,
Oxutdular axtalanmış
axta tarixi.
Başı çəkib, gözü görüb
ağ yalanları,
Millət daha yaxın qoymaz
saxta tarixi…

## Portret

Mən bir dağ çayıyam, dağ bulağıyam,
Mənim çoxalmağım, azalmağım var.
Gəlir bu bağların təbiətindən,
Coşub-daşmağım var, sozalmağım var.

Sözdən öz ömrümə bir heykəl yonub,
Gözəllik önündə heyrətdən donub,
Arıtək çiçəkdən-çiçəyə qonub,
Dədə ocağından köz almağım var.

Suyam – damla-damla daşdan çıxmışam,
Gözəm, göz yaşıyam, yaşdan çıxmışam.
Bir qarlı, boranlı qışdan çıxmışam,
Təzə çiçəklənib yaz olmağım var.

Duyğular bağında güllər bitirib,
Bir ömrün içində min ömür sürüb,
Şairtək əlinə qələm götürüb,
Aşıqtək sinəmə saz almağım var.

Bənzər xəyalımız uçan quşlara,
Tarix qiymət verər uca başlara.
Ulu qayalara, qızıl daşlara,
Qədim əlifbatək yazılmağım var.

## İstiqlal şairləri

Məndən salam olsun gündə yüz dəfə,
Yurdumun dili bal şairlərinə.
Ürəyi dumduru, ruhu tərtəmiz,
Halaldan da halal şairlərinə.

Sözü dünyamızın sirdaşı, yarı,
Fikri ağılların meyvəsi, barı.
Allah özü verib ucalıqları,
Bu ulduz, bu hilal şairlərinə.

Yerlərə yerləşməz, göylərə sığmaz,
Oğulsan ondakı şücaəti yaz.
Min ömür versək də yenə azdır, az,
Vətənin istiqlal şairlərinə.

## Sevgi

Bu millətə neçə-neçə
kitab verdim, dürlü kitab,
O yazılan kitablara
bu millətdən gəldi cavab.
Əlli ildir ürəklərin
şeirindəsən, sözündəsən,
Bulaq kimi göz açmısan,
bulaqların gözündəsən.
Səni sevir ilham ilə
vəsf etdiyin dağ da, daş da,
Bal daşıyan saf arı da,
ağ bulud da, uçan quş da.
Səni sevir zaman, tarix,
dörd fəsil də, il də, ay da,
Əsən yel də, axan su da,
göy bulaq da, dəli çay da.
Səni sevir yaşıl yamac,
qızıl üfüq, göy çəmən də,
Qara şum da, saf toxum da,
nəm torpağa düşən dən də.
Nə eşitməz, nə də görməz
göz bağlısa, qulaq karsa,

sevgi yoxdur, ürək darsa.
Səni sevir təbiətin
yaratdığı hər nə varsa,
Sevir doğma balasıtək
yer də səni, göy də səni.
Səsi bilir, ünü bilir
saz da səni, ney də səni.
Sevir sənin düşüncəni
düşüncəsi, ağlı kimi,
Sevir səni bu məmləkət
qızı kimi, oğlu kimi.
Sevir səni görən gözü,
vuran qəlbi, yazan əli,
Sevir səni insanların
ən təmizi, ən gözəli.
Çox arzular qalır hələ,
açılacaq çiçək-çiçək,
Sevməyənlər qoy sevməsin,
sevilənlər seviləcək.

**O günü gözləyirəm**

Şuşada bir doyunca
Könlümdən gəzmək keçir,
o günü gözləyirəm.
Qalxıb Cıdır düzünə
Gülümü dərmək keçir,
o günü gözləyirəm.

Coşa İsa bulağı,
Qəlbə süzülə, axa.
Ovcum nur ilə dola,
Gözüm gözünə baxa,
o günü gözləyirəm.

Məni Şuşada görə,
Düşmən baxa xar ola.
Daşaltının hər daşı
Düşmənə məzar ola,
o günü gözləyirəm.

Öz gülüm, öz çiçəyim
Öz əlimlə dərilə.
Görə bu xoş günləri,
Şəhidlərim dirilə,
o günü gözləyirəm.

Qarabağ deyiləndə
Torpaq qalxa ayağa.
Ehtiyacı olmaya
Bir səddə, bir dayağa,
o günü gözləyirəm.

Şuşasız varlığımda
Nə ürək var, nə də can.
Ağ atın üstə gələ
Ulu dədəm Pənah xan,
o günü gözləyirəm.

Hanı Şuşa torpağı,
Gülü kəfənim olsun.
Mənimdir, mənimkidir,
Həmişə mənim olsun.
o günü gözləyirəm.

Mənim ağ paltarımda,
Hələ qara yamaq var.
Şuşasız yaşamaq yox,

Şuşalı yaşamaq var,
o günü gözləyirəm.

Tarixi düz yazıla,
Şuşa Şuşamız ola.
Bu dünyaya sığmayan
Bir tamaşamız ola,
o günü gözləyirəm.

**Səfər**

Sökülür dan yeri, doğur Günəşi,
Səhərin ən gözəl səhərdi, Tanrım.
Ağ günün dalınca bir ağ gün gəlir,
Xəbərin nə gözəl xəbərdi, Tanrım.

Yaratdıqca ürək, yaratdıqca əl,
Daşında gül açır, torpağında ləl.
Sənin yaratdığın hər şeydən gözəl,
Əsərin nə gözəl əsərdi, Tanrım.

Yerin də, göyün də nurlu həyatdı,
Nurdan yarananlar şöhrətə çatdı.
Gör neçə mərtəbə, gör neçə qatdı,
Şəhərin nə gözəl şəhərdi, Tanrım.

Donunu yaşıldan biçir yolların,
Könüldən-könülə köçür yolların,
İnsan ürəyini seçir yolların,
Səfərin nə gözəl səfərdi, Tanrım.

**Yaz qələmim, yaz**

Ömür bir fürsətdi verilib sənə,
Ömürdən, fürsətdən yaz qələmim, yaz.
Yaradan dünyanı cənnət yaradıb,
Sehrli cənnətdən yaz qələmim, yaz.

Çağır ilhamını, çağır təbini,
Həm elmini göstər, həm ədəbini.
Dəryalardan götür mürəkkəbini,
Tükənməz hikmətdən yaz qələmim, yaz.

Heç vaxt yaxşılığı çıxarma yaddan,
Dadlı meyvələrin düşməsin daddan.
Sən ki, çox çıxmısan alovdan, oddan,
Taledən, qismətdən yaz qələmim, yaz.

Odu olmayanın oduna yanma,
Haqqı olanların haqqını danma.
Yaxşılıq etməyi qızırqalanma,
Bu ali qüdrətdən yaz qələmim, yaz.

Dağ qalır, daş qalır, təbiət qalır,
İnsana əbədi məhəbbət qalır.
Çox şey unudulur, həqiqət qalır.
Əsl həqiqətdən yaz qələmim, yaz.

Açılan çiçəkdi, qonan arıdı,
Yönü Aya sarı, günə sarıdı.
Şeir şairlərin könül varıdı,
Bu naz-nemətdən yaz qələmim, yaz.

**Ədəbi bədii gecə**

Kitabxanada Zəlimxan Yaqub yaradıcılığını oxucular arasında təbliğ edən əsas tədbirlərdən biri ədəbi-bədii gecədir. Bədii gecəni keçirmək üçün əvvəlcədən kitabxanaçı tərəfindən hazırlıq görülməlidir. Bədii gecəni müxtəlif adlarla adlandırmaq olar. Məsələn: "Zəlimxan Yaqubun poeziya çələngi", "Parlaq istedad sahibi", "Poeziya gülşənində sazla, sözlə gəzən şair", "Saz həvəsli, yaz nəfəsli sənətkar" və s. Ədəbi-bədii gecəyə məktəblilər, müəllimlər, ədəbiyyatşünaslar, şair və yazıçılar, kitabxananın fəal oxucuları və s. oxucu quruplarını dəvət etmək olar.

**"Saz həvəsli, yaz nəfəsli sənətkar"**

**I Aparıcı:** O, Azərbaycan xalqının "Dədə Qorqud"dan, Nizamidən, Füzulidən, "Koroğlu"dan, Vaqifdən, Aşıq Ələsgərdən, Səməd Vurğundan, Şəhriyardan... başlayan tükənməz poetik istedadına yiyə durdu və ustadları özündə ehtiva etdiyinə görə özü də ustadlaşdı. Bu şəxs öz yaradıcılığı ilə sevilib, seçilən Zəlimxan Yaqub idi.
Azərbaycan bir nəğmədir, sözü mənim ürəyimdə,
Eşqi uca zirvələrdə, özü mənim ürəyimdə

**II Aparıcı:** Xalq şairi Gürcüstan Respublikasının Borçalı mahalında dünyaya göz açsa da onun Azərbaycan yurdu, əlli milyonluq sevəni var. Füzuli sevgisindən, Xətai mətanətindən, aşıq Ələsgər, aşıq Alı ruhundan, öz xalqından mənəvi dəstək, ilham alan, qüdrətlənən Z.Yaqub yaradıcılığı təkrarolunmazdır, bənzərsizdir.
Nə alim doğuldum, nə də ki, dahi,
Peşiman da deyiləm gələn günümə.
Əliboş aparma ilahi məni,
Doğulan günümdən ölən günümə.

**I Aparıcı:** Xalq şairi Zəlimxan üçün kitabxana müqəddəs bir yerdir. Müəllimə peyğəmbərə bərabər varlıq kimi hörmət edən, kitabı "Quran" qədər müqəddəs tutan şair bu hissi belə izah edir: "Qələm mənim üçün Allahın danışan dilidir".

Sənət və şəxsiyyət zirvəsinə ucalan, "ocaq bizim, pir bizim, qıfıl bizim, açar bizim, hikmət bizim, sirr bizim deyən" Azərbaycan tarixindən, mənəviyyatının zənginliyindən xəbər verən şeirləri ilə qəlbləri oxşayan Zəlimxan Yaqub gözəlliyə həmişə möhtac olduğunu poeziyanın dili ilə açıqlayır.

Ruhumun təbiətlə yaman tutur söhbəti
Hara uçub qonursa can deyib can eşidir,
Səsi eşidilməyən qarışqa səsini də, eşidir,
Ürəkdə tellər duyur, damarda qan eşidir,
Azadlıq ağrısını, qovğalar çəkən başın,
Təbiətdi məlhəmi ağlın, ruhun, yaddaşın
Ruhum hopur canına, dağın, qayanın, daşın,
Bir Zəlimxan can deyir, min Zəlimxan eşidir

**II Aparıcı:** Bu gözəlliyin, məhəbbətin ünvanı isə müxtəlifdir. Bəlkə dünyanın cənnət məkan diyarı olan Azərbaycanı özü üçün vətən seçən, Şuşasızlıqdan, qürbət həsrətindən bağrı qübar bağlayan, alışan, yanan, bənzərsiz Xan, Bülbüldür şairə ilham verən...

Ötmədi mənasız, hədər bir anım,
Odlu duyğularla qaynadı qanım,
Sevgidən kərəmtək alışdı canım,
Sevənlər baş əydi külümün üstə.

**I Aparıcı:** Poeziya ümmanından güc alan Zəlimxan Yaqub əqidəsinə sadiq qalan bir vətəndaş kimi şeirləri ilə həmişə yaradıcılığında önəm verdiyi həqiqətin, ədalətin, Vətənə xidmətdən yaranan ülvi hisslərin təbliğatçısı kimi çıxış edir. Ən başlıcası isə başqalarından fərqli olaraq, etiraf etməyi bacarır.

**II Aparıcı:** Millətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar
söyləyən Z. Yaqub el sənətinin qüdrətini çox şeirlərində vəsf edib. Sazın, sözün vəhdətindən qaynaqlanan şeirləri xalqın dillər əzbəri olmuşdur.
Neçə dəfə pəncərədən daş gəlib,
Neçə dəfə xumar gözdən yaş gəlib,
Sevən kəslər allaha da xoş gəlib,
Gözəl dünya gözəllərin var olsun.

**I Aparıcı:** Zəlimxan Yaqub bütün Azərbaycan xalqı, böyük türk dünyası tərəfindən sevilən-seçilən sənətkardır. O, xalqımızın böyük sevgisini, ağır dərdini dərindən duymağı, sənətkarlıqla şeirlərinə gətirməyi yaxşı bacarmışdır. Z. Yaqub vətənə, xalqa torpağa və insanlara bağlı məhəbbət şairidir. O, ürəyi yandıqca qələminə əl atmışdır. Yurduna, yuvasına, ana südü, ata sümüyü ilə bağlı şairin əsərlərində xalq məhəbbəti xüsusi bir ahənglə səslənməkdədir :

Otum bitib suyum axmaz dünyada
Düçar olsam nifrətinə bu xalqın.
**II Aparıcı:** Ana təbiətə vurğunluq, doğma ənənəvi olaraq Z. Yaqub poeziyasında öncül yerlərdən birini yurda tükənməz sevgi motivləri tutur və onun yaradıcılığının ana xəttini təşkil edir.
Aran da, yaylaq da doğmadır mənə
Qəlbimi dağlara verməsəm ölləm,
Yazda çiyələyi, yayda yarpızı,
Payızda moruğu dərməsəm ölləm.
Hər kimin qar düşsə yayda yadına,
Vüqarlı zirvələr çatar dadına,
Bizim o dağların ölməz adına,
Şeirdən bir çələng hörməsəm ölləm.

**I Aparıcı:** Z.Yaqub  Qarabağ nisgilimizi yazanda Koroğlu tək nərə çəkərək, hər kəsi ayağa qalxmağa səsləyir:

Bu gecə yuxuma girmişdi Şuşa,
Cabbar ağlayıydı, Xan ağlayırdı,
Dönmüşdü qanadı qırılmış quşa,
Qarabağ başabaş qan ağlayırdı.

**Aparıcı:** Şairin məhəbbət mövzusunda yazdığı şeirlər içərisində özünəməxsus yer tutan, parlaq lirizmi ilə seçilən, özünün də etiraf etdiyi kimi, ən çox sevdiyi “Bu yaşıl ağacın altı bizimdir” şeiridir.

Kök üstə budağı neçədi bildim,
Budaqda yarpağı neçədi bildim,
Salxımı, saçağı neçədi bildim,
Bu yaşıl ağacın altı bizimdi.
Bu sevgi, bu layla bu beşik bizim
Çəkər növbəmizi bu keşik bizim,
Nəyimizə lazım ev-eşik bizim,
Bu yaşıl ağacın altı bizimdir.
*Tədbirin bu yerində şairin sözlərinə yazılmış bir mahnı dinlənilir.*

**II Aparıcı:** Hər bir şair öz zəmanəsində yazdıqları ilə insanların qəlbinə yol taparaq, özünü hər kəsə sevdirərək, onlar tərəfindən qəbul olunurlar, bu baxımdan Z. Yaqub çox xoşbəxt sənətkardır. Çünki o, öz sənətkarlığı ilə təkcə Azərbaycanda yox, bütün türkdilli ölkələrdə insanların sevimlisidir. Şairin mayası sazla, sözlə yoğrulub. Sazın bağrından qopan odu, alovu, tellərindən süzülən zümzüməni onun şeirlərindən eşitmək olar. Bəli, Zəlimxan Yaqubun bütün poeziyası elin, obanın, məmləkətin daşından, insanın ürəyinə bulaq suyu kimi yayılır, qanını coşdurur.

**I Aparıcı:** Zəlimxan Yaqub sazla baş-başa verib pıçıldaşanda adama elə gəlir ki, iki şeir vurğunu bir-biri ilə dərdləşir, bir-birinin hayına, dadına çatır.

Saz yaşayır zillər, bəmlər içində,
Ötən çağlar, gələn dəmlər içində,
Bir aləmdi, bu aləmlər içində,
Bizdən sonra qalana bax, qalana.

*Bu arada bir saz havası dinlənilir.*

**I Aparıcı:** Çaldığı sazın təranəsi, oxuduğu şeirin hikməti, dayandığı xitabət kürsüsünün ədalətli səsi, elin, obanın qeyrətidir Zəlimxan Yaqub. Onda olan aşiqlik qüdrəti, şairlik gücü, vətənpərvərlik hissi yaşayıb-yaratmaqda daim şairin yardımçısı olur.

Həyatın yolları yayla qış kimi
İstidi, bürküdü, borandı, qardı
Mənim taleyimi, gələcəyimi
Düşünə-düşünə saçın ağardı

Bu misralarda atanın övladı yolunda əzab, əziyyətindən, ən əsası onun gələcəyi haqqında, daşınıb, düşünməsindən atanın balasına məhəbbətindən, qayğısından, ağaran saçlarından söz açılır.

Oğul da atanın çəkdiyi əməyin əvəzində deyir:

Necə saçlarını ağartmışamsa,
Elə də üzünü ağardacağam.

Bəli, üz ağardan övladlar doğma vətənin baş tacıdır.

**I Aparıcı:** Zəlimxan Yaqub oxucu sarıdan ən varlı, zəngin oxucu sayına malik olan şairlərimizdəndir. Həmişə olduğu kimi bu gün də oxucular onun şeirlərini sevə-sevə oxuyurlar.

Sənin nə ki, sazın-sözün, özün də,
Şeirsən, məna var hər bir sözündə.

**II Aparıcı:** Zəlimxan Yaqub sözü eldən güc, seldən qanad alır:

Keçilməz dərələr keçilməsəydi,
Aşılmaz zirvələr aşılmasaydı,
Yeldən qanad açıb, seldən güc alıb
Ruhum küləklərə qovuşmasaydı,
Mən hardan bilərdim şairlik nədir?

**I Aparıcı:** Z.Yaqub saflığın, paklığın insana başucalığı gətirdiyini, insan qocalanda da vüqarlı olacağını şair fəhmi ilə dəqiq görmüş və şeirlərində qabarıq şəkildə vəsf etmişdir.

Şair olan öz ömrünü yaşamır,
Dərdin-qəmin bol ömrünü yaşayır.
Yolçuların yoldaşına çevrilir,
Cığır açır, yol ömrünü yaşayır.

**II Aparıcı:** Zəlimxan Yaqub xalq ruhu ilə qaynayıb-qarışan, xalqın içində olan, xalq tərəfindən sevilən, poeziyası ilə xalqın qəlbini riqqətə gətirən bənzərsiz şairdir. Şairin rahat gününün olmadığını bəyan edir:

Sevgisiz, ilhamsız, sözsüz, nəğməsiz,
Şairin bircə gün həyatı yoxdur

Bəli, Zəlimxan Yaqubun bütün Türk dünyasının şairidir.

**I Aparıcı:** Zəlimxan Yaqub özü dediyi kimi "bir əli torpaqda, bir əli haqda", "bir əli yerdə, bir əli göydə" olan şairdir. O, həm yerin, həm də asimanın, ucsuz-bucaqsız göylərin şairidir. O, zamana da sığmır, vaxt da onun üçün əvvəli-axırı olmayan sonsuzluqdur. Ancaq bu sonsuzluğun daxilində Zəlimxan üçün öz yeri, öz məkanı, öz sərhədləri olan, hər şeydən əziz, hər şeydən müqəddəs olan bir Vətən vardır. Zəlimxan Yaqub Azərbaycan torpağının bir qəlpəsidir, ancaq bu qəlpə, şairin özünün dediyi kimi, bütün Azərbaycan tarixinin, yaddaşının bir tikəsidir:

Deməsinlər gəldi-gedər,
Keçirmərəm ömrü hədər.
Öləndə də qəbrim qədər
Azərbaycan torpağıyam!

**II Aparıcı:** Şair vətənimizin gülündən, ağacından da, otundan - suyundan da, havasından - şehindən də, küləyindən - tufanından da, qızından - oğlundan da nə yazır-yazsın, hamısının mayasında işıq var, həyat eşqi var, ona görə də onun qoşmaları, gəraylıları, təcnisləri, poemaları, dastanları, bir sözlə yazdığı nə varsa hər biri oxucular tərəfindən sevilir. Zəlimxan Yaqub Azərbaycan poeziyasında heyrət duyğusu ilə qeyrət duyğusunu birləşdirərək yeni bir üslub yaratdığını belə tərənnüm edir:

Heyrət ilə qeyrəti yoğurdular yapdılar.
Və ölümlü dünyada bir ölməzlik tapdılar.

**I Aparıcı:** Hər bir vətənpərvər azərbaycanlı kimi Zəlimxan Yaqub da ruhunu bir məqam üstündə kökləyir: Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, Qarabağ qubarı, nisgilimiz ürəklərdən silinsin, xalqımız rahat, firavan yaşasın. Şairin poetik yaradıcılığı onun əzab və sevinc dolu ömür yolunun salnaməsi kimi canlanır.

**II Aparıcı:** Zəlimxan Yaqubun şeir yaradıcılığı orijinallığı, bədiiliyi, günün nəbzini əks etdirməsi və ictimai-siyasi tutumu ilə milyonların qəlbinə yol tapır, sənətin zirvəsi fövqünə yüksəlir, əbədiyaşarlıq ömrü qazanır.

Zəlimxan Yaqubda həyat eşqi, yazıb-yaratmaq eşqi tükənməz idi. Heç bir çətinliyə, əzab-əziyyətə, məhrumiyyətə baxmadan ürəyində vətən məhəbbəti, əlində qələm söz mülkündə “yerlə-göylə” əlləşirdi. Çünki təbiətin və cəmiyyətin mahiyyətindən doğan narahatlıq, gözlənilməz dəyişikliklər dövründə yazıçının xalq qarşısında məsuliyyəti, vətən qarşısında cavabdehliyi Zəlimxan Yaquba bir şair kimi dinclik vermirdi. Zəlimxan Yaqub xalqın böyük etimadını qazanmış ictimai xadimdir. O, ömrünün mənasını xalqa xidmətdə görürdü. Zəlimxan Yaqub ulu ozan, qopuzu ilə, sazlı-sözlü çələngilə həmişə, hər bir elin, obanın sevimlisi olaraq könüllərdə qalacaqdır.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Seçilmiş əsərləri : 2 cilddə. I cild : şeirlər və poemalar. - Bakı : Şərq-Qərb, 2006. - 248 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Seçilmiş əsərləri : 2 cilddə. II cild : şeirlər və poemalar. - Bakı : Şərq-Qərb, 2006. - 289 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Dünyadan köçən mənəm : seçilmiş şeirləri. - Bakı : Kitab klubu, 2016. - 408 s. : foto.

Əbədiyyət dastanı : poemalar. - Bakı : Pedaqogika, 2008. - 265 s. : rəngli foto. - (qutuda).

Hüseyn Saraçlı dastanı : dastan-roman. - Bakı : Pedaqogika, 2007. - 256 s.

Qayıdaq əvvəlki xatirələrə : şeirlər. - Bakı : Gənclik, 2005. - 182 s. - (Azərbaycan lirikası kitabxanası).

Mən bir dağ çayıyam : şeirlər. - Bakı : Pedaqogika, 2006. - 336 s. : rəngli foto.

Mən öz dastanımı yazıb gəlmişəm : poeziya. - Bakı : Elm və Təhsil, 2009. - 262 s. : il., rəngli foto.

Mənə ümid kimi bax. - Bakı : Şərq-Qərb, 2014. - 416 s. - Kitab Xalq şairi Zəlimxan Yaqubun 65 illik yubileyi münasibətilə nəşr olunur.

Peyğəmbər : poema. - Bakı : Pedaqogika, 2009. - 320 s.

**Elektron resurslar**

Biz niyə sevməyək bir-birimizi [Elektron resurs] : poeziya - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : rəngli : rəngli il. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

***Kitablarda***

Azadlıq aşiqi : Xəlil Rza haqqında // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 124-129. - Məqalə ilk dəfə "Azərbaycan" qəzetinin 21 aprel 1995-ci il tarixli sayında dərc edilmişdir.

Bəxtiyar Vahabzadə - 80 // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 143.

Xalq yazıçısı Mövlud Süleymanlıya açıq məktub // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 152-164.

Xəlil Rza haqqında ürək sözü // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 129-133.

Xocalı faciəsi // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 83-91.

İsa Hüseynova sevgi, Muğannaya inam // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 144-151.

Kimi ; Bu yaşıl ağacın altı bizimdi ; Dedilər məclisdə bədnəzər olar // Azərbaycan sevgi poeziyası : 3 cilddə : 20-ci əsr Azərbaycan Poeziyası. - Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2009. – C. 3. - S. 229-270.

Laçınlı -Laçınsız duyğularım // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 92-94.

Lefortovo zindanı : şair Xəlil Rzaya həsr olunub // Mən öz dastanımı yazıb gəlmişəm. - Bakı : Elm və təhsil, 2009. - S. 242-250.

Məmməd Araz gülü bitsin // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 134-136.

Mövlud Süleymanlı haqqında söz // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 165-166.

Nigar xanım Rəfibəyli haqqında // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 105-106.

Ordum varsa, yurdum var ; And yerimiz : şeirlər // Vətənə nəğmə çələngi. - Bakı : Qoliaf, 2011. - S. 351-354.

Qarabağ - qeyrət qalamız // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 79-82.

Süleyman Rəhimov haqqında xatirələrim // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 114-123.

Şair harayı : poema // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 394-405.

Tofiq Bayram dünyası // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 137-142. - Məqalə ilk dəfə "Günay" qəzetinin 17 dekabr 1994-cü il tarixli nömrəsində dərc edilmişdir.

Yaddaşımda yaşayan Osman Sarıvəlli // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 107-113.

***Dövri mətbuatda***

Arzu : şeir // Füyuzat. - 2018. - № 2. - S. 62-63.

Cığır açıb yol ömrü yaşayan sənətkar : [Xalq şairi Zəlimxan Yaqubla müsahibə / söhbətləşdi Ə. Bayramov] // Xalq qəzeti. - 2015. - 1 mart. - № 48. - S. 7.

Əbədiyyət ; Gəlir ; Dünya və mən ; Mənəm və b. şeirlər // Yeni Azərbaycan. - 2016. - 23 yanvar. - № 13. - S. 7.

Həyatı duymaq : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 14 yanvar. - № 1. - S. 12.

Heydər köçdü deyəndə ; Ölməzlik ; Bu dünya sənsiz deyil : şeirlər // Yeni Azərbaycan. - 2016. - 10 dekabr. - № 228. - S. 5.

Xatirələrdə... : şeir // Yeni Azərbaycan. - 2016. - 23 yanvar. - № 13. - S. 7.

Xəyala nə gəlsə, qanadlı gəlir... : şair Zəlimxan Yaqubun yaradıcılığı haqqında // Yeni Azərbaycan. - 2016. - 23 yanvar. - № 13. - S. 7.

Xocalım, ay Xocalım.! : şeir // Mədəniyyət.az. - 2019. - № 323. - S. 8.

O görüşlər // Ədəbiyyat qəzeti. - 2016. - 16 yanvar. - № 2. - S. 3.

Ordum varsa, yurdum var : şeir // Füyuzat. - 2017. - № 3. - S. 62-63.

Saf ağ elmi ; İsadan Muğannaya : İsa Hüseynovun (Muğanna) əziz xatirəsinə şeirlər // Kaspi. - 2017. - 11 fevral. - № 26. - S. 16.

Salam olsun ; Mənim ürəyim ; Dünya, məni sevirsənsə : şeirlər // Savalan. - 2017. - 14-20 fevral. - № 6. - S. 3.

Şuşa qayaları : şeir // Savalan. - 2018. -23-26 fevral. - № 10. - S. 3.

Şuşada oxunan şeir : şeir // Savalan. - 2017. - 2-8 may. - № 18. - S. 4.

***Haqqında***

***Kitablar***

**Əziz V.** Zəlimxan : şeir // Şeirlər. - Bakı : Gənclik, 2005. - S. 317-318.

**Hacızadə N.** Zəlimxan Yaqub - xalq şairi, haqq şairi : Özü və sözü haqqında düşüncələr // Yada düşdü. - Bakı : Araz, 2008. - S. 455-467.

**Zəlimxan Yaqub** : Biblioqrafiya. - Bakı : Gənclik, 2011. - 388 s. : rəngli şək.  - (Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri). - (cildli).

**Zəlimxan Yaqub** : fotoalbom. - Bakı : Şərq-Qərb, 2012. - 384 s. : rəngli foto.

**Zəlimxan Yaqub** : foto-kitab. - Bakı : Azərbaycan, 2000. - 248 s. : rəngli şək. - (Azərbaycanın tanınmış şəxsiyyətləri).

**Zəlimxan Yaqub ədəbi** düşüncədə : oçerk və məqalələr. - Bakı : Vətən, 2009. – C.1. - 360 s. : portr.

**Zəlimxan Yaqub ədəbi** düşüncədə. - Bakı : Vətən, 2009. – C. 2. - 370 s. : portr.

**Zəlimxan Yaqubdan yazılanlar** : məqalələr toplusu. - Bakı : Vətən, 2004. - 400 s.

***Dövri mətbuat***

**Akimova E.** Boylan, başın üstündəki yüksəkliyə, insan : şair Zəlimxan Yaqubun "Həyatı duymaq" şeirinin təhlili : 1 şeir/2 rakurs // Ədəbiyyat qəzeti. - 2017. - 14 yanvar. - № 1. - S. 12.

**Anar.** "Yorulmayasan Zəlimxan!" : Zəlimxan Yaqub - 65  // Ədəbiyyat qəzeti. - 2015. - 23 yanvar. - № 4/5. - S. 2-3.

**Bağırlı A.** Söz dərdi dünyaya yaymaq üçündür : şair Zəlimxan Yaqubun "Həyatı duymaq" şeirinin təhlili : 1 şeir/2 rakurs  // Ədəbiyyat qəzeti. - 2017. - 14 yanvar. - № 1. - S. 12.

**Bağırlı M.** İtirdik : (Ustad şairimiz Zəlimxan Yaqubun ölümü münasibətilə) // Kaspi. - 2016. - 16 yanvar. - № 9. - S. 20.

**Barat E.** İlahi eşqin Zəlimxan Yaqubu // Kaspi. - 2019. - 2-4 fevral. - № 22. - S. 15.

**Cəbrayıl Q.** Azərbaycanın xatirəsini canlandıran poeziya // Kaspi. - 2017. - 17 iyun. - № 107. - S. 21.

**Cəfərov Nizami.** Xalq şairi // Ədəbiyyat qəzeti. - 2019. - 19 yanvar. - № 2. - S. 9.

**Əhmədov T.** Azərbaycanın nəğməkar ürəyi : [xalq şairi Zəlimxan Yaqubun yaradıcılığı haqqında] // Respublika. - 2016. - 16 yanvar. - № 10. - S. 7.

**Əyyublu M.** Zəlimxan Yaqub: Dünənə heç zaman güllə atmadım // Palitra. - 2018. - 4 aprel. - № 58. - S. 13.

**Faxralı R.** Bu yaşıl ağacın altı bizimdir : şair Zəlimxan Yaqubun yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 20 fevral. - № 7. - S. 10.

**Fərəcova Z.** Dünənin, sabahın şairi : [Zəlimxan Yaqubun yaradıcılığı haqqında] // Yada düşdü. - 2016. - № 1. - S. 38-41.

**Həsənzadə N.** O Həqq aşiqiydi : şeir // Ədəbiyyat qəzeti. - 2016. - 16 yanvar. - № 2. - S. 1.

**Hüseyn F.** Sevmək - ağı ağ, qaranı qara kimi : şair Zəlimxan Yaqubun yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 11.

**Xalq şairi Zəlimxan** Yaqub son mənzilə yola salındı // İki sahil. - 2016. - 12 yanvar . - № 5. - S. 10. ; Respublika. - 2016. - 12 yanvar. - № 6. - S. 7.

**Xalq şairi Zəlimxan** Yaqubun məzarüstü abidəsinin açılışı olub // Xalq qəzeti. - 2017. - 10 yanvar. - № 4. - S. 6.

**İsfəndiyarqızı N.** Yaşamaq istəyirəm! : Zəlimxan Yaqub: "Allah bir möcüzə göstərsə, yəqin qəbirdə də yazaram" // Kaspi. - 2015. - 4 iyul. - № 119. - S. 15.

**Kamal R.** İlahi səsdən gəldim // Ədəbiyyat qəzeti. - 2016. - 16 yanvar. - № 2. - S. 4.

**Kamal R.** Zəlimxan dediyi sözə salam de! : Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 28 noyabr. - № 60. - S. 18.

**Kamal R.** Zəlimxan Yaqub: səsdən ünə // Azərbaycan. - 2016. - № 2. - S. 146-149.

**Mədətoğlu Ə.** Əzizim Balabanı... : "Şuşada balam qaldı" poemasının müəllifi ustad Zəlimxana oxucu məktubu // Yada düşdü. - 2015. - № 3. - S. 19-22.

**Mehdi Q.** Zəlimxan Yaqub yaddaşı : esselər // Kaspi. - 2015. - 14 mart. - № 48. - S. 20.

**Məhərrəmova Təranə.** Gəlmişəm, qoynunda sığınacaq ver : Zəlimxan Yaqub onu sevən saysız-hesabsız pərəstişkarlarının ürəyində yaşayacaq // Kaspi. - 2016. - 12 yanvar. - № 5. - S. 9.

**Məmmədov Q.** Bölünməz Vətənin poetik xəritəsi - Zəlimxan Yaqub poeziyası // Mədəniyyət.az. - 2016. - № 2. - S. 18-23.

**Namazov Ə.** Şairi axtarıram : Şair Zəlimxan Yaqubun ildönümünə ithaf edirəm... // Təhsil problemləri. - 2018. - 8-15 mart. - № 19/20. - S. 14.

**Nəbioğlu M.** Zaman səni dana bilməz : [Zəlimxan Yaqubun yaradıcılığı haqqında] // Mədəniyyət. - 2016. - 13 yanvar. - № 3. - S. 7.

**Nəbioğlu M.** Zəlimxan Yaqub daim xalqının, millətinin sevgisini görüb : [Zəlimxan Yaqub irsinin araşdırıcısı Musa Nəbioğlu ilə müsahibə / söhbətləşdi M. Sadıqov] // Palitra. - 2016. - 30 noyabr. - № 215. - S. 13.

**Nəbioğlu M.** Zəlimxan Yaqub sözünü zamana deməyə gəlmişdi : [Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu ilə müsahibə / söhbətləşdi M. Əyyub] // Palitra. - 2018. - 16 yanvar. - № 8. - S. 13.

**Nəcəfzadə Q.** Yurd hekayəsi : böyük şairimiz Zəlimxan Yaqubun xatirəsi // Azərbaycan. - 2016. - № 2. - S. 150-153.

**Qaraçaylı V.** Göy hasarın üstündən sallanan ağ yasəmən ; Zəlimxan köçür : şeirlər // Ədəbiyyat qəzeti. - 2017. - 2 dekabr. - № 44/45. - S. 25.

**Qoca X.** Əbədiyyətə qovuşan ömür... // Xalq qəzeti. - 2016. - 12 yanvar. - № 6. - S. 10.

**Quliyev V.** Bu, bizim son görüşümüz oldu // Yada düşdü. - 2019. - № 1(35). - S. 34-36.

**Şahanə.** Zəlimxan Yaqubun "Saz" poeması miniatür kitab kimi // 525-ci qəzet. - 2019. - 20 noyabr. - № 153. - S. 13.

**Şəmsizadə N.** Qoca dünya, Zəlimxanı neylədin?! // Ədəbiyyat qəzeti. - 2016. - 16 yanvar. - № 2. - S. 5.

**Turan A.** Göydə avazın qalsın... : Türkiyədə - Afyon Karahisarda, Yunus Əmrənin haqqa qovuşduğu ehtimal edilən Sandıqlıda xalq şairi Zəlimxan Yaqubla unudulmaz görüşü // Ədəbiyyat qəzeti. - 2015. - 26 dekabr. - № 64. - S. 10.

**Zülaloğlu A.** Qəlbimizdə yaşayan Zəlimxan Yaqub // Kaspi. - 2019. - 19-21 yanvar. - № 12. - S. 21.

# Sazla, sözlə çağlayan, daşan şair

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 02
Çapa imzalanmışdır: 10.01.2020
Tirajı:100
Pulsuz